# Polşa Azərbaycanlıları Şurası və "Citi Bank"ın dəstəyi ilə Varşava Azərbaycan Evində təlim keçirilib

Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı və qlobal maliyyə sektorunun aparıcı şirkətlərindən biri olan "Citi Bank"ın dəstəyi ilə bu ölkədə yaşayan soydaşlarımızın əmək bazarına daxil olmasını və karyera imkanlarını genişləndirməsini hədəfləyən təlim keçirilib.




AZƏRTAC xəbər verir ki, təlim 60-dan çox nümayəndənin iştirakı ilə Varşavada yerləşən Azərbaycan Evində baş tutub.

Polşa Azərbaycanlıları Şurasından bildiriblər ki, qurum daha əvvəl də dəfələrlə yerli iş bazarına inteqrasiya mövzusunda ödənişsiz karyera təlimləri təşkil edib və bu proqramlardan yüzlərlə azərbaycanlı tələbə faydalanıb. Lakin budəfəki tədbir beynəlxalq səviyyədə əməkdaşlığın nəticəsi olaraq fərqlənib. "Citi Bank" ilə birlikdə keçirilən bu təlim iştirakçılara qlobal iş bazarının tələblərinə uyğun bilik və bacarıqlar qazandırmaq baxımından xüsusi əhəmiyyət kəsb edib.

Təlimdə "Citi Bank"ın aparıcı insan resursları mütəxəssisləri Mixal Radeçki və Karola Sulinska iş axtarışı strategiyaları, peşəkar CV hazırlanması, müsahibə texnikaları və sosial əlaqələrin işə qəbul prosesindəki rolu barədə dəyərli bilik və təcrübələrini bölüşüblər. Spikerlər 3 saat ərzində yüksək peşəkarlıq nümayiş etdirərək, iştirakçılara əmək bazarının aktual mövzularına dair praktiki tövsiyələr veriblər.

Tədbirin ən faydalı hissələrindən biri real müsahibə şəraitinin simulyasiyası olub. Bu sessiya sayəsində iştirakçılar öz bilik və bacarıqlarını praktik şəkildə sınamaq, işə qəbul mütəxəssislərindən birbaşa rəy almaq və gələcək müsahibələrə daha yaxşı hazırlaşmaq imkanı əldə ediblər.

Polşa Azərbaycanlıları Şurası və "Citi Bank" soydaşlarımızın peşəkar inkişafını və Polşa əmək bazarına inteqrasiyasını dəstəkləmək üçün bu kimi tədbirləri davam etdirməyi planlaşdırır. Bu təşəbbüsün uğuru gələcəkdə daha çox bu tip layihələrin həyata keçirilməsinə və Polşada yaşayan azərbaycanlıların karyera inkişafına töhfə verməsinə zəmin yaradır.

Azərbaycan. - 2025.- 19 fevral (№ 37).- S.17.